*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 485-490*

https://doi.org/10.62837/2025.9.485

**GÜLÜSTAN HƏSƏNOVA**
**BDU-nun Şərqşünaslıq fakültəsi,**
**Türk filologiyası kafedrasının müəllimi,**
**filologiya üzrə fəlsəfə doktoru**
**E-mail:hasanovagulustan@gmail.com**

# ATTILA İLHAN VƏ "MAVICILER" ƏDƏBI CƏRƏYANI

**Açar sözlər:** Attila İlhan, şeir, şair, xalq
**Ключевые слова:** Аттила Ильхан, стихотворение, поэт, народ
**Key words:** Attila Ilhan, poem, poet, nation

Türk ədəbiyyatında özünəməxsus tərzi olan sənətkarlardan biri də Attila İlhandır. Attila İlhan, 15 iyul 1925-ci ildə İzmirin tarixi səmti olan Mənəməndə dünyaya gəlmişdir. İlk və orta təhsilini İzmirdə tamamlamışdır. Əslində məktəb illəri heç də asan keçməmişdir, çünkü, bu dövrdə siyasi hadisələrə qatılmışdı. Məktəbin son sinfində təhsil alarkən əmisinin özündən xəbərsiz qatıldığı CHP şeir yarışında "Cebbaroğlu Mehemmed" şeiriylə bir çox tanınmış şairi geridə buraxaraq ikincilik qazanmışdır.

Sonra İstanbul Hüquq fakultəsinə qəbul olaraq təhsilini burada davam etdirməyə başlamışdır.

Attila İlhan ilk şeirini 1941-ci ildə qələmə almışdı. Şeir "Balıkçı türküsü" adlanırdı.

Mavi dudaklarında denizin
Çıplak bacaklı balıkçıların türküsü
Dalgalar türkümüzü söyler!
Yeni bir gün doğuyorken dünya
Sabah yıldızının ışığında
Ağları kurutalım çocuklar!

Şeir "Yeni ədəbiyyat" qəzetinin 23-cü sayında dərc olunmuşdu.

İlk yazdığı nəsr əsəri isə 1944-cü ildə qələmə aldığı "Kültürümüz üzerine düşünceler" əsəridir.

İlk şeir kitabı "Duvar"ı 1948-ci ildə öz vəsaiti hesabına çap etdirmişdi. Özündə azadlıq, bərabərlik ehtiva edən, ictimai, realist şeirlərlə qarşılaşırıq bu kitabda, həmçinin, özünü dünya ilə, insanlar ilə bərabər hiss edən, öz ölkəsində insanlara rəva görülənlərə üsyan edən gənc bir şairin səsini eşidirik. Döşeme şeirində bunu açıq görmək olur:

Kınalanır elvan elvan yeryüzü
Örenciğ'in yamacında meclis kurulur

Sıra sıra cezveler köze sürülür
Talim eder geldim ola türküsünü Sarı Ökkeş.

Şairliyinin ilk on ilini dastan boylarına,həmçinin, həssas eyni zamanda gərgin şəkildə, İkinci Dünya Müharibəsinin Avropanı ağuşuna alan neqativ abu havasını əks etdirməyə çalışmışdır.

Sonralar isə insanın duyğu dünyasına yönələrək, öz dünyagörüşünə yaslanaraq fərdi mövzular işləmişdir.

Attila İlhan özünəməxsus tərzi ilə fərqlənirdi, şeirlərində Xalq şeiri və Divan şeirindən də təsirləndiyi açıq gözə çarpır.

Attila İlhanı digərlərindən fərqləndirən cəhətlərdən biri də onun sənətə tək tərəfdən yaxınlaşmaması idi. O, şeiriyyətlə yanaşı, film çəkilişlərində iştirak edir,ssenari yazırdı. Qəzetlərdə də tez tez yazıları dərc olunurdu. Romanlar yazır, hətta tənqidi yazıları ilə də oxucularının qarşısına çıxırdı.

Attila İlhan şeirlərində bir çox mövzunu eyni zamanda işlətmişdi. Yalnızlıq, qadın, eşq, yağış onun şeirində tez tez rastlaşdığımız mövzulardır.

"Duvar"dan sonrakı şeir kitablarında daha çox sevgi mövzusunu işləmişdir. Sevgi mövzusunu real, gerçəkçi çalarlarla o qədər təbii şəkildə oxucuya çatdırmışdı ki, bu gün də gənclər onun şeirlərini maraqla oxuyurlar. Sənətkarın "Ayrılık sevdaya dahil" kitabında yer alan "Nasıl bir sevdaysa" adlı şeirində İlhanın təbiətlə insanın duyğularının qarşı qarşıya işlədiyinin şahidi oluruq:

Ay çok mu gecikti neredeyse çıkar
Sen yalnızlığıma varır varmaz
Az sonra yağmuru durduracaklar
Rüzgarı değiştirdim
Ustura ağzı poyraz
Yok canım yıldızları unutmadık
Mutlaka yerlerinde bulunacaklar
Kenarı yıldızlı mavi bir karanlık
Sütlü çıplaklığını örtecek kadar. (3, s.68)

Bundan başqa, eyni kitabda yer alan "Soğuk kadınlar balladı" şeirində isə İlhan həssas və senimental bir yanaşma sərgiləmişdi, burada qadının daxili aləmi, hissləri ön plana çəkilmişdi:

Soğuk kadınlardı usulca geçtiler
Koyu bir yalnızlığın kenarından
Adımları ürkekti değişiktiler
Kan mı sızıyordu dudaklarından
Başka bir yalnızlığa gittiler.

"Ayrılık sevdaya dahil" şeiri isə özünəməxsusluğu ilə seçilir, burada bir az hüzn, bir az romantika, bir az da pessimist çalarlar görürük:

Heryerinde vücudumun
Ağır yanık sızıları
Bir yerlere yıldırım düşüyorum
Ayrılığımızı hissettiğim an
Demirler eriyor hırsımdan (3, s.76)

“Delik deşik”şeirindəki fəlsəfi çalarlar qəhrəmanın psixoloji vəziyyətini, ruh halını oxucunun gözü önündə canlandırır.

Kirpi gibisin çocuk
Her tarafın diken
Kim elini uzatsa
Delik deşik

Üstelik
Sen de kan içindesin (3, s.110)

Şeiriyyəti ilə yanaşı nəsr əsərləri ilə sevilən Attila İlhan, şeir janrında olduğu kimi roman janrında da bir çox əsərlər vermişdir. Romanlarında özünəməxsus stili ilə fərqlənmiş, kəlimə xəzinəsi və fərqli bənzətmələri ilə zəngin bir üslub sərgiləmişdir. “Sokaktaki Adam”, “Zenciler Birbirine Benzemez” “Kurtlar Sofrası”, “Aynanın İçindekiler Serisi”, “Fena Halde Leman” kimi romanları Türk nəsrində özünəməxsus yer tutmuşdur.

Bununla yanaşı, İlhan tərcümə əsərləri ilə də oxucunun qarşısına çıxmışdır. Malrauxun “Kanton`da isyan”, “Umut”, Aragonun “Basel`in Çanları” əsərlərini türkçəyə tərcümə etmişdir.

Attilla İlhan, 1952-ci il, noyabr ayının 1-də XIX əsrin 40-cı illərində Türk ədəbiyyatında, Türk poeziyasında dönüş nöqtəsi olan Qəribçilərə qarşı Maviçiler cərəyanının əsasını qoymuşdur. Attila İlhan “Sosial Realizmin münasibətləri yaxud Başlanğıc” adlı məqaləsiylə bu qarşı çıxışı dilə gətirmişdir. Öncəki bütün cərəyanlar kimi – Tənzimat ədəbiyyatı Divan ədəbiyyatını, Sərvəti-fünun ədəbiyyatı Tənzimat ədəbiyyatını, Fəcri-ati ədəbiyyatı Sərvəti-fünun ədəbiyyatını tənqid etdiyi kimi, «Qarip» cərəyanı da özündən əvvəlki ədəbi təmayülləri eləcə də, cərəyanları tamamilə inkar etmişdir. Orxan Vəli Kanık, Məlik Cövdət Anday və Oqtay Rıfat Horozcu yazdıqları şeirlərin oxucuda qəribə duyğular yaradacağından əmin idilər. Vəznsiz, qafiyəsiz şeirlər yazaraq ilkə imza atmışdılar. Həm ifadə, həm forma, həm də məzmununa görə o dövrə qədər məlum olan şeirlərdən tamamilə fərqli tərz görən ədəbiyyatçılar doğru olaraq, hərəkata «Qarip» (qəribə, əcayib) adını vermişdilər. Maviçiler isə Qəribçiləri inkar edirdilər. Onlar şeirdə şairanəliyin tərəfdarı idilər. Onlar Qəribçilərdən fərqli olaraq şeirin bəsit, sadə olmasına qarşı idilər. Maviçilər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 485-490*

şeirin dərin, düşündücü, zəngin olmasını istəyirdilər. Attila İlhan, Əhməd Oqtay, Orxan Duru, Fərid Edgü kimi sənətçilər bu cərəyanın nümayəndələindən idi.

Attila İlhan bu ədəbi məktəbin ən güclü təmsilçilərindən biri idi. "Mavi" jurnalının ilk saylarında yer alan şeirləri və məqalələri ilə cərəyanın təməl prinsiplərini ortaya qoymuşdur.

Qəribçilərin böyük şairi Orxan Vəlinin gözəl şeirlərindən biri olan «Bədava» şeirinə diqqət edək. Bu şeir Orxan Vəlinin həm forma, şəkil cəhətdən, həm də məzmun və ifadə cəhətdən onun Türk poeziyasına gətirdiyi bütün xüsusiyyətləri əks etdirən bir şeirdir.

Bedava yaşıyoruz, bedava;
Hava bedava, bulut bedava;
Dere, tepe bedava;
Yağmur, çamur bedava:
Otomobillerin dışı,
Sinemaların kapısı,
Camekanlar bedava;
Peynir ekmek değil ama
Acı su bedava;
Kelle fiyatına hürriyet,
Esirlik bedava;
Bedava yaşıyoruz, bedava.

Bedava (5, s.188)

Göründüyü kimi şair bu şeirdə lakonik bir dillə, qısa bir şeirdə bir çox məsələlər-aclıq, yoxsulluq, xalqa lazım olmayan təmtəraq, pendir-çörəyə həsrət insanlar, azadlıq uğrunda kəsilən başlar, əsir vəziyyətdə yaşamaq və s. "Havayı" sözü ilə qarşılaşdıraraq gözəl ifadə edilmişdir. Şair təkrarlarla bu şeirdə səmimi bir forma yaratmışdır. Bu da şeirin oxucuya təsirini gücləndirir, onu daha da oxunaqlı edir. Beləliklə, Orxan Vəli öz şeirlərilə "Menfaatleri bir yandan diline, bir yandan da doğrudan doğruya halka bağlı olan şairin bağlı olduğu o böyük kalabalığı unutmaması lazım" (50, s.184) olduğuna böyük inam bəslədiyini göstərir.

Maviçilər isə əksinə şeirin lakonik dillə yazılmasına qarşı çıxaraq yazır: "Şiirin kelimelerle değil resimlerle yazıldığını bilen şairler için kelime, diyalektik bir ilişkiler demetidir;ilki onu anlatacak imgeyle, ikincisi aynı imgeyi anlatmakdan sorumlu diğer sözcüklerle, üçüncüsü mısradaki belirli şiirdeki genel ton uyumuyla, dördüncüsü ise şiirler arasındaki bütünlük ve karşılığın gelişme süreciyle ilgilidir. Resimler imgenin somutlaşdırılmasında oynayacağı role göre sözcüğün anlamı değişeceğinden, sözcüğün çağrışımı ve görüntüyle diyalektik ilişkisi bu rolü belirler."

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 485-490*

**Gülüstan Həsənova**
**Filologiya üzrə fəlsəfə doktoru**

**Attila İlhan və "Maviciler" ədəbi cərəyanı**

**Xülasə**

Attila İlhan Türk ədəbiyyatında özünəməxsus yeri olan görkəmli sənətkarlardan biridir. O, müasir Türk şeirinin və "Maviciler" ədəbi hərəkatının tanınmış simalarındandır. Məqalədə, Attila İlhanın həyatı haqqında məlumat verilmiş, yaradıcılığı ələ alınmış, əsasını qoyduğu "Maviciler" cərəyanı haqqında məlumat verilmişdir. O, "Maviciler" şeir cərəyanı daxilində şeiri aliləşdirmək üçün əlindən gələni etmiş, şeirin mənasının dərin ola biləcəyi fikrini müdafiə etmişdir.

**Д.ф.ф. Г.Г.Гасанова**

**Аттила Ильхан и литературное движение "Maviciler"**

**РЕЗЮМЕ**

Аттила Ильхан — один из выдающихся поэтов, занимающий уникальное место в турецкой литературе. Он является одной из известных фигур современной турецкой поэзии и литературного движения «Мавичилер». В статье представлена информация о жизни Аттилы Ильхана, обсуждается его творчество и приводится информация о движении «Мавичилер», которое он основал. Он сделал все возможное, чтобы возвысить поэзию в рамках поэтического движения «Мавичилер» и отстаивал идею о том, что поэзия может иметь глубокий смысл.

**Ph.D. G.Q.Hasanova**

**Attila Ilhan and literary movement "Maviciler"**

**SUMMARY**

Attila Ilhan is one of the prominent artists who has a unique place in Turkish literature. He is one of the well-known figures of modern Turkish poetry and the "Maviciler" literary movement. The article provides information about Attila Ilhan's life, discusses his work, and provides information about the "Maviciler" movement he founded. He did his best to elevate poetry within the "Maviciler" poetry movement and defended the idea that poetry can have a deep meaning.

## ƏDƏBİYYAT

1. Bezirci A. Orhan Veli. İstanbul: Evrensel Basım Yayınları, 1995, 176 s.
2. Birsel S. Şiirin ilkeleri. İstanbul: Yenilik Yayınları, 1954, 79 s.
3. İlhan A. Ayrılık Sevdaya Dahil. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2003, 111 s.

4. İlhan A. Kurtlar Sofrası. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2016, 683 s.
5. Kanık O. V. Beni bu güzel havalar mahvetti. 4 şarkı. İstanbul: Yapı Kredi Yayınları, 2013, 279 s.
6. Kanık O. V. Vazgeçemediğim. İstanbul: Marmara Kitapevi, 1945, 16 s.
7. Köprülü M.F. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken Yn., 1986, 437 s.
8. Sazyek H.Garip Hareketi. Ankara: Türk İş Bankası Yayınevi, 1999, 430 s.
9. Tonga N. Yıldırım T. Orhan Veli Kanık.Bütün yazıları. İstanbul: Kırmızı Kedi evi, 1945, 528 s.

**Rəyçi: f.ü.f.d. Qəmər Alxanova**